*"Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır".*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 13 sentyabr 2014-cü il | № 70 (1887) | Qiyməti 25 qəpik


## Rəsmi xronika

***✓ Sentyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqının Genişlənmə və Avropa Qonşuluq Siyasəti üzrə komissarı Ştefan Fülenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Görüşdə Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu, "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində əməkdaşlığın genişləndirilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, ölkəmizlə Avropa İttifaqının əlaqələrinin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji və digər sahələrdə inkişafı ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.***

* * *

***✓ Sentyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qırğız Respublikası Baş nazirinin birinci müavini, Azərbaycan-Qırğızıstan hökumətlərarası iqtisadi-humanitar komissiyasının həmsədri Tayırbek Sarpaşevin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***

***Görüşdə ölkələrimiz arasında siyasi əlaqələrin razılıq doğurduğu vurğulandı, iqtisadi, ticarət, humanitar və digər sahələrdə də əməkdaşlığın inkişaf etdirilməsinin önəmi qeyd olundu.***

* * *

***✓ Sentyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Serbiyanın Baş nazirinin müavini və xarici işlər naziri İvitsa Daçiçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***

***Dövlətimizin başçısı Azərbaycan ilə Serbiya arasında ikitərəfli əlaqələrin inkişafının razılıq doğurduğunu vurğuladı. Prezident İlham Əliyev Serbiyanın Baş nazirinin müavini və xarici işlər naziri İvitsa Daçiçin Azərbaycana bu səfərinin ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.***

* * *

***✓ Sentyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının müdafiə naziri İsmet Yılmazın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən hərbi və hərbi-texniki əməkdaşlıq sahəsində uğurla inkişaf etdiyi bildirildi, keçirilməsi nəzərdə tutulan birgə hərbi təlimlərin Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında əlaqələrin genişləndirilməsi baxımından önəmi qeyd olundu, Türkiyə Respublikasının müdafiə naziri İsmet Yılmazın ölkəmizə səfərinin bu sahədə əməkdaşlığımızın daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminlik vurğulandı.***

* * *

***✓ Sentyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin təkbətək görüşü olub.***

***Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, energetika və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi.***

**AzərTAc-ın materialları əsasında**

# Prezident İlham Əliyev birinci Azərbaycan Beynəlxalq müdafiə sənayesi sərgisi ilə tanış olub




***Sentyabrın 11-də Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ölkəmizdə və regionda ilk dəfə keçirilən Beynəlxalq müdafiə sənayesi - "ADEX-2014" sərgisi ilə tanış olub.***

Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü tədbirlər nəticəsində ölkə həyatının bütün istiqamətlərində, o cümlədən ordu quruculuğu sahəsində son illərdə mühüm nailiyyətlər əldə olunub. Bu sırada dövlətimizin başçısının sərəncamı ilə 2005-ci ildə yaradılan Müdafiə Sənayesi Nazirliyinin fəaliyyəti mühüm yer tutur. Nazirliyin tabeliyinə verilən müəssisələrdə qısa müddətdə yenidənqurma işlərinin aparılması, son illərdə həmin müəssisələrin maşın və avadanlıq parkının yenilənməsi məqsədilə dünyanın inkişaf etmiş ölkələrindən ən son texnoloji avadanlıqların alınıb quraşdırılması Ali Baş Komandanın bu sahənin inkişafına verdiyi önəmi bir daha göstərir. İndiyədək bu müəssisələrdə müxtəlif istehsal sahələri yaradılıb və bu sahələr Silahlı Qüvvələrin müasir tələblərə cavab verən müdafiə təyinatlı məmulatlarla təmin olunmasına geniş imkanlar açıb. Görülən işlərin nəticəsidir ki, Müdafiə Sənayesi Nazirliyi aviasiya, naviqasiya, cihazqayırma və digər istiqamətlər üzrə dünyanın inkişaf etmiş ölkələri ilə əməkdaşlıq edir. 2009-cu ildən başlayaraq nazirliyin müəssisələrində istehsal olunan məhsullar xaricdə keçirilən beynəlxalq müdafiə sənayesi sərgilərində də nümayiş etdirilir. Bu sərgilərdə Azərbaycan istehsalı olan məhsullar böyük maraqla qarşılanır. Müdafiə Sənayesi Nazirliyi bu günədək 15-dən artıq beynəlxalq sərgidə iştirak edib.

Beynəlxalq müdafiə sənayesi sərgisi isə bu il ilk dəfə Azərbaycanda keçirilir. Əgər Azərbaycan ilk qatıldığı sərgidə 27 adda məmulatla təmsil olunurdusa, "ADEX-2014"-də 168 adda məmulat nümayiş etdirir. Bu sərgi müasir silah və texnikanın, habelə milli müdafiə sahəsində Azərbaycanın gücünün və qüdrətinin böyük nümayişinə çevrilib. Azərbaycan Beynəlxalq müdafiə sənayesi sərgisi Müdafiə Sənayesi və Müdafiə nazirliklərinin rəsmi təşəbbüsü və dəstəyi ilə təşkil edilib. Sərginin keçirilməsi ideyası son illərdə müdafiə sənayesi sahəsində əldə olunan uğurlarla sıx bağlıdır. Təsadüfi deyil ki, bütün sənaye sahələrində müşahidə olunan inkişaf sayəsində Azərbaycan həm regional, həm də beynəlxalq bazarlarda aparıcı fiqur və strateji tərəfdaşa çevrilib.

**(Ardı 2-ci səhifədə)**

## Azərbaycan Respublikası vətəndaşlarının 2014-cü il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə uyğun olaraq və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələri şəxsi heyətlə komplektləşdirmək məqsədi ilə **qərara alıram:**

1. 1996-cı ildə doğulmuş və çağırış günündək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1979-1995-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşları 2014-cü il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2014-cü il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 10 sentyabr 2014-cü il.

## Akademik Ramiz Mehdiyevin "Dağlıq Qarabağ: məxəzlərdən oxunmuş tarix" kitabının müzakirəsi və təqdimatı keçirilib

Sentyabrın 10-da Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.A.Bakıxanov adına Tarix İnstitutu Elmi Şurasının geniş iclasında akademik Ramiz Mehdiyevin Moskvada rus dilində nəşr olunan "Dağlıq Qarabağ: məxəzlərdən oxunmuş tarix" kitabının müzakirəsi və təqdimatı keçirilib.

AzərTAc xəbər verir ki, tədbirdə institutun direktoru, Milli Məclisin deputatı, AMEA-nın müxbir üzvü Yaqub Mahmudov təqdim olunan kitabın əhəmiyyətindən danışıb. Bildirilib ki, akademik Ramiz Mehdiyevin bu kitabında Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin tarixi, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri araşdırılır.

Akademik Ramiz Mehdiyev yeni əsərində Dağlıq Qarabağın tarixini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi kontekstində araşdırıb. Bununla da, görkəmli alim bir vətəndaş - tədqiqatçı kimi müasir mərhələdə xalqımızın taleyüklü problemi olan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi həqiqəti çox incəliklə araşdırıb ortaya çıxarmağı qarşısına məqsəd qoyub.

Bütün çıxışlarda vurğulanıb ki, akademik Ramiz Mehdiyevin bu əsəri milli tarixşünaslığımızda irəliyə atılan yeni bir addım kimi çox dəyərlidir və tarixçilər üçün əhəmiyyətli mənbədir.

İclasın sonunda akademik Ramiz Mehdiyevin "Dağlıq Qarabağ: məxəzlərdən oxunmuş tarix" kitabının müxtəlif dillərə tərcümə olunaraq nəşr edilməsi və dünya ictimaiyyətinə çatdırılması qərara alınıb.

**AzərTAc-ın materialları əsasında**

# Prezident İlham Əliyev birinci Azərbaycan Beynəlxalq müdafiə sənayesi sərgisi ilə tanış olub





(Əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən layihələr regionda təhlükəsizlik və əməkdaşlığın inkişafına müsbət təsir göstərir. Həmçinin, Azərbaycanın hərbi sənaye kompleksi də bir sıra irimiqyaslı layihələr həyata keçirərək öz imkanlarını əsaslı şəkildə genişləndirib. Hazırda Azərbaycan 900 adda müxtəlif hərbi təyinatlı məhsul, o cümlədən bütün növ döyüş sursatı, müxtəlif texnika və silahlar istehsal edir. Müdafiə Sənayesi Nazirliyi bir çox ölkələrlə hərbi-texniki əməkdaşlığı da sürətlə genişləndirir.

Müdafiə sənayesi naziri Yavər Camalov Prezident İlham Əliyevə sərgi barədə məlumat verdi. Bildirildi ki, Azərbaycanın və xarici ölkələrin dövlət orqanları, biznes dairələri və sənaye strukturları tərəfindən sərgiyə göstərilən böyük maraq bu tədbirin aktuallığını və əhəmiyyətini sübut edir.

Dövlətimizin başçısı əvvəlcə Müdafiə Sənayesi Nazirliyinin stendinə baxdı.

Qeyd edək ki, Müdafiə Sənayesi Nazirliyinin yaradılması müstəqillik illərində Azərbaycanda ordu quruculuğu istiqamətində görülən işlərin mühüm tərkib hissəsini təşkil edir. Hazırda Müdafiə Sənayesi Nazirliyi hərbi texnika, silah, mühəndis texnikası, ehtiyat hissələri, döyüş sursatları və digər müdafiə təyinatlı məhsulların istehsalı üzrə fəaliyyət göstərir. Nazirliyin tabeliyində 5 istehsalat birliyi və 2 elmi tədqiqat institutu var. Eyni zamanda, nazirlik mövcud qanunvericilik çərçivəsində və beynəlxalq hüquq normalarına riayət edərək istehsal olunan məhsulların xarici ölkələrə ixracını həyata keçirir. Hazırda nazirlik dünyanın bir sıra qabaqcıl ölkələri ilə hərbi-texniki sahədə əməkdaşlıq edərək müxtəlif müdafiə təyinatlı məhsulların istehsalı istiqamətində layihələr icra edir. Prezident İlham Əliyev də dəfələrlə bəyan edib ki, hazırda Azərbaycan Ordusunun təchizatında ölkəmizdə istehsal olunan məhsullar mühüm rol oynayır.

Dövlətimizin başçısı sərgidə iştirak edən xarici ölkələrin pavilyonlarında da oldu.

Fransanın dəniz müdafiəsi üzrə dünyada lider şirkətlərindən olan "DCNS Group" şirkəti dənizçiliklə bağlı tikinti sahələrində və hərbi dəniz bazaları üçün xidmət şəbəkəsi yaradır.

Türkiyə bu sərgidə bir neçə şirkətlə təmsil olunur. Məsələn, "Roketsan" şirkəti sistem mühəndisliyi vasitəsilə sifarişçi tələbləri əsasında müəyyən edilən və fərdi tələbatlara uyğunlaşdırılan sistemlərin layihələndirilməsi və istehsalı ilə məşğuldur.

1975-ci ildən fəaliyyətdə olan "Aselsan" şirkəti isə hərbi rabitə, radar, radioelektron, elektro-optik, naviqasiya və aviasiya elektron avadanlıqları, silah, çoxfunksiyalı məlumat idarəetmə sistemi və digər yüksək texnologiyalar təklif edir.

Ukraynanın "Ukroboronprom" Dövlət Konserni də bu sərgidə yüksək səviyyədə iştirak edir. Ukrayna hərbi-sənaye kompleksinə daxil olan 134 müəssisəni özündə birləşdirən şirkət hərbi və xüsusi təyinatlı məhsulların ixracı və idxalı ilə məşğuldur.

Polşanın pavilyonu da təklif olunan məhsulların zənginliyi ilə seçilir. Bu ölkənin "Armaments Group" şirkətlər qrupu müdafiə vasitələrinin istehsalı üzrə ən böyük müəssisələrdən biridir və hazırda milli təhlükəsizlik sisteminin və bütün Polşa iqtisadiyyatının inkişafında mühüm rol oynayır.

Sərginin özəlliyini artıran mühüm amillərdən biri də burada Azərbaycanın tarixinə, xüsusilə də ölkəmizdə ordu quruculuğunun şanlı keçmişinə böyük diqqətlə yanaşılmasıdır. Azərbaycan Tarix Muzeyinin silahlar və bayraqlar fondunun zəngin ekspozisiyasının sərgidə nümayiş etdirilməsi bir daha qəhrəmanlar diyarı olan ölkəmizdə böyük ordu ənənələrinin olduğunu təsdiqləyir.

İsrail şirkətləri də Azərbaycan Beynəlxalq müdafiə sənayesi sərgisində yüksək səviyyədə təmsil olunur. Bu ölkənin "Plasan" şirkəti taktiki döyüş maşınları, təyyarələr, vertolyotlar və fərdi mühafizə üçün texnika, "Rafael" şirkəti isə hava, quru, dəniz və kosmosda istifadə üçün yüksək texnologiyalı müdafiə sistemlərinin geniş çeşidini təklif edir. "Israel Weapon Industries" şirkəti də öz məhsulları ilə maraq doğurur.




Belarus sərgidə 7 şirkətlə təmsil olunur. "AGAT-Control Systems" şirkətinin istehsal etdiyi məhsullar quru qoşunları, hərbi hava qüvvələri və hava hücumlarından müdafiə üzrə döyüşün idarə edilməsi sistemlərinin istehsalı ilə məşğuldur. Bu ölkənin sərgidə iştirak edən digər şirkətləri də müdafiə sənayesi üzrə yüksək texnologiyaları təqdim edirlər.

Sərginin əsas iştirakçılarından biri də Rusiyadır. Bu ölkə "ADEX-2014"-ə 14 şirkətlə qatılıb. "Rosoboronexport" dünya silah bazarının liderlərindən biridir və Rusiyanın illik silah satışının 80 faizini təmin edir. Dünyanın 70-dən çox ölkəsi ilə hərbi-texniki əməkdaşlıq edən Rusiyanın sərgidə təmsil olunan digər şirkətləri də müdafiə sənayesi sahəsində yüksək texnologiyalı məhsullarını nümayiş etdirirlər.

Cənubi Afrika Respublikasının "Paramount" şirkəti müdafiə və təhlükəsizlik üzrə innovasiya sahəsində dünya lideridir. Azərbaycan ilə sıx əməkdaşlıq quran şirkət bütün dünyada müdafiə, daxili təhlükəsizlik və sülhməramlı qüvvələr üçün ən müasir texnika, cihaz və zirehli maşınlar istehsal edir.

Sərgiyə 6 şirkətlə qatılan Çin də müdafiə sənayesi sahəsində yüksək texnologiyalı məhsullarını nümayiş etdirir. Bu ölkənin "CETC" şirkəti əsasən elektron komponentlərin və elektron avadanlıqların istehsalı ilə məşhurdur. Dünyanın 100-dən çox ölkəsində iş quran şirkət hazır məhsullar çeşidinin yüksək səviyyəsi ilə seçilir.

Fransanın Qərbi Avropada nüfuzlu müdafiə sənayesinə malik "MBDA" şirkəti bütün növ silahlı qüvvələrdə idarə olunan raket sistemləri üzrə genişçeşidli komplekslərin yaradılması ilə məşhurdur.

Sərgi ilə tanışlıq zamanı Prezident İlham Əliyevə Müdafiə Sənayesi Nazirliyinin tabeliyində olan müəssisələrdə istehsal edilən ən son model tapança hədiyyə edildi.

Sonra dövlətimizin başçısı sərginin Baku Expo Mərkəzinin həyətində təşkil olunan digər hissəsinə baxdı. Burada əsasən çöl-səhra şəraitində, hərbi hava qüvvələrində istifadə olunan texnika, silah-sursat nümayiş etdirilir.

Azərbaycan Beynəlxalq müdafiə sənayesi sərgisində dünyanın 34 ölkəsindən 200 şirkət və 22 rəsmi nümayəndə heyəti iştirak edir. Sərgiyə 37 şirkətlə qatılan Azərbaycan irimiqyaslı ekspozisiyası ilə fərqlənir. Bu sərgiyə olan böyük maraq Azərbaycanın mühüm strateji tərəfdaş kimi yüksək rolunu və əhəmiyyətini bir daha təsdiqləyir.

Beləliklə, Azərbaycan Beynəlxalq müdafiə sənayesi sərgisi milli hərbi sənaye potensialının nümayişi, habelə hərbi sənaye kompleksinin müxtəlif sahələrində istifadə olunan müasir müdafiə texnologiyaları və nümunələri, eləcə də ən yeni hərbi texnika növləri ilə tanışlıq və beynəlxalq əməkdaşlıq əlaqələrinin qurulması baxımından səmərəli meydandır. Bu cür ixtisaslaşdırılmış sərginin keçirilməsi Azərbaycanda müdafiə sənayesinin inkişafına təkan verməklə yanaşı, ölkədə istehsal edilən hərbi məhsulların dünya bazarında rəqabətə davamlı olmasına da töhfə verəcək.

Sərgi çərçivəsində "Müasir müharibə metodları və təhlükəsizlik çağırışları" mövzusunda keçiriləcək konfransda müasir hərbi-texniki siyasət üzrə aktual məsələlər müzakirə olunacaq. Ümumilikdə konfransda 200-dən artıq mütəxəssis, hərbi ekspert, eləcə də dövlət strukturlarının və şirkətlərin nümayəndələri iştirak edəcəklər.

**AzərTAc**

# Bakıda birinci Azərbaycan Beynəlxalq müdafiə sənayesi sərgisi açılıb




***Sentyabrın 11-də Bakı Ekspo Mərkəzində birinci Azərbaycan Beynəlxalq müdafiə sənayesi sərgisinin "ADEX-2014"-ün açılışı olub.***



AzərTAc xəbər verir ki, mərasimdə dövlət və hökumət nümayəndələri, xarici ölkələrin Azərbaycandakı səfirliklərinin, beynəlxalq təşkilatların təmsilçiləri, bir sıra ölkələrin müdafiə nazirləri, müdafiə nazirlərinin müavinləri, qərargah rəisləri iştirak ediblər.

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin müdafiə məsələləri üzrə köməkçisi, Prezident Administrasiyası rəhbərinin müavini general-leytenant Vahid Əliyev Azərbaycan Prezidenti İlham Əliyevin sərgi iştirakçılarına təbrik məktubunu oxuyub.

Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Yavər Camalov çıxış edərək ölkəmizdə və regionda ilk dəfə keçirilən Azərbaycan Beynəlxalq müdafiə sənayesi sərgisinin ("ADEX 2014") açılışı münasibətilə iştirakçıları təbrik edib. Bildirib ki, Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazilərinin 20 faizi işğal olunub, bir milyondan çox insan qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Bu səbəbdən Azərbaycanın müdafiə qüdrətinin gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Silahlı Qüvvələri Cənubi Qafqazın ən güclü ordusudur. Ölkəmizdə müdafiə sənayesi sürətlə inkişaf edir.

Nazir diqqətə çatdırıb ki, bu sərginin keçirilməsi ideyası son illər ölkəmizin müdafiə sənayesində əldə olunan uğurlarla bağlıdır. Bütün sənaye sahələrində müşahidə olunan inkişaf sayəsində Azərbaycan həm regional, həm də beynəlxalq bazarlarda fəal iştirakçıya və strateji tərəfdaşa çevrilib. Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən layihələr regionda təhlükəsizliyin və əməkdaşlığın inkişafına müsbət təsir göstərir. Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi bir çox ölkələrlə hərbi-texniki əməkdaşlığı sürətlə genişləndirir. Sərgi çərçivəsində də müxtəlif şirkətlərlə əməkdaşlıq məsələləri müzakirə olunacaq.




Qeyd edilib ki, "ADEX-2014" sərgisində dünyanın 34 ölkəsindən 200 şirkət və rəsmi nümayəndə heyəti iştirak edir.

Sərgidə Azərbaycan, Türkiyə, Rusiya, Belarus, Koreya Respublikası, Polşa, İsrail və Ukraynanın səkkiz milli qrupları öz ekspozisiyalarını nümayiş etdirirlər.

Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi "ADEX-2014" sərgisində 168 adda müdafiə təyinatlı məmulat nümayiş etdirir.

Sərgidə sənaye müəssisələrinin əldə etdikləri ən yeni nailiyyətlər quru qoşunları və hərbi-dəniz qüvvələrinin silah və texnikaları, aviasiya və aviasiya silahları, hava hücumundan müdafiə üzrə sistem və vasitələri, xüsusi təyinatlı vasitələri, informasiya texnologiyaları, rabitə sistemləri və vasitələri, ordunun inzibati və texniki təminatı, kosmik texnologiyalar istiqamətləri üzrə nümayiş olunacaq.

Sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar.

# Azərbaycan Respublikasının Müdafiə naziri İsrailin Müdafiə nazirini qəbul edib



Sentyabrın 10-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Beynəlxalq müdafiə sənayesi "ADEX-2014" sərgisində iştirak etmək üçün ölkəmizdə səfərdə olan İsrail Dövlətinin Müdafiə naziri cənab Moşe Yaalonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

Görüşdə İsrail Dövlətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Rafael Harpaz da iştirak edib.

# Azərbaycan Respublikasının Müdafiə naziri Türkiyə Respublikasının Milli Müdafiə naziri ilə görüşüb

Sentyabrın 11-də "Bakı Ekspo Mərkəzi"ndə Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Azərbaycan Beynəlxalq müdafiə sənayesi "ADEX-2014" sərgisində iştirak etmək üçün ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Milli Müdafiə naziri cənab İsmət Yılmazın rəhbərlik etdiyi nümayəndə heyəti ilə geniş tərkibdə görüşü olub.

Görüş zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

Görüşdə Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab İsmayıl Alper Coşkun iştirak edib.



# Azərbaycan Respublikasının Müdafiə naziri Rusiya Federasiyası Hərbi-Texniki Əməkdaşlıq üzrə Federal Xidmətinin nümayəndə heyətini qəbul edib

Sentyabrın 11-də "Bakı Ekspo Mərkəzi"ndə Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Beynəlxalq müdafiə sənayesi "ADEX-2014" sərgisində iştirak etmək üçün ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Hərbi-Texniki Əməkdaşlıq üzrə Federal Xidmətinin İdarə rəisi cənab Vladimir Artemyevi qəbul edib.

Görüşdə Azərbaycan-Rusiya arasında hərbi-texniki sahədə mövcud əlaqələr və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



# Azərbaycan Respublikasının Müdafiə naziri Fransa Respublikası Silahlandırma Baş İdarəsinin Beynəlxalq İnkişaf direktorluğunun nümayəndə heyətini qəbul edib



Sentyabrın 11-də "Bakı Ekspo Mərkəzi"ndə Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Beynəlxalq müdafiə sənayesi "ADEX-2014" sərgisində iştirak etmək üçün ölkəmizdə səfərdə olan Fransa Respublikası Silahlandırma Baş İdarəsinin Beynəlxalq İnkişaf direktorluğunun nümayəndəsi general-mayor Jan-Kristov Nuronu qəbul edib.

Görüş zamanı Azərbaycan və Fransa arasında qarşılıqlı maraq doğuran hərbi və hərbi-texniki məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Fransa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Paskal Mönye də iştirak edib.

# Azərbaycan Respublikasının Müdafiə naziri Xorvatiya Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə görüşüb



Sentyabrın 11-də "Bakı Ekspo Mərkəzi"ndə Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Azərbaycan Beynəlxalq müdafiə sənayesi "ADEX-2014" sərgisində iştirak etmək üçün ölkəmizdə səfərdə olan Xorvatiya Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Draqo Lovriçi qəbul edib.

Görüşdə ölkələrimizin yerləşdikləri regionlardakı hərbi-siyasi vəziyyət, hərbi-texniki və təhlükəsizlik məsələləri barədə fikir mübadiləsi aparılıb.

# Azərbaycan Respublikasının Müdafiə naziri Pakistan İslam Respublikası Milli Mühəndislik və Elm Komitəsinin sədrini qəbul edib

Sentyabrın 11-də "Bakı Ekspo Mərkəzi"ndə Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Beynəlxalq müdafiə sənayesi "ADEX-2014" sərgisində iştirak etmək üçün ölkəmizdə səfərdə olan Pakistan İslam Respublikası Milli Mühəndislik və Elm Komitəsinin sədri cənab Mahammad İrfan Burneyi qəbul edib.

Müdafiə naziri Azərbaycan ilə Pakistan arasında hərbi sahədə əməkdaşlığın dostluq münasibətləri üzərində qurulduğunu, bu əlaqələrin daim inkişaf etdiyini və hər iki tərəf üçün qarşılıqlı faydalı olduğunu qeyd edib.



Qonaq səfərdən məmnun qaldığını bildirərək, Azərbaycan-Pakistan qarşılıqlı münasibətlərinin möhkəmlənməsində bu cür görüşlərin keçirilməsinin zəruriliyini vurğulayıb.

Görüş zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.

# Azərbaycan Respublikasının Müdafiə naziri Malayziya Müdafiə Nazirliyinin nümayəndə heyətini qəbul edib

Sentyabrın 11-də "Bakı Ekspo Mərkəzi"ndə Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Azərbaycan Beynəlxalq müdafiə sənayesi "ADEX-2014" sərgisində iştirak etmək üçün ölkəmizdə səfərdə olan Malayziya Müdafiə nazirinin müavini cənab Datuk Abdul Rahim Bakrinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə geniş tərkibdə görüşü olub.

Görüş zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.



# Azərbaycan Respublikasının Müdafiə naziri Belarus Respublikası Müdafiə Nazirliyinin nümayəndələrini qəbul edib



Sentyabrın 11-də "Bakı Ekspo Mərkəzi"ndə Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Beynəlxalq müdafiə sənayesi "ADEX-2014" sərgisində iştirak etmək üçün ölkəmizdə səfərdə olan Belarus Respublikası Müdafiə nazirinin silahlanma üzrə müavini general-mayor İqor Lotenkovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüş zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, fotolar Vüsal HƏMİDOVUNDUR**

## Azərbaycan Respublikasının Müdafiə naziri İran İslam Respublikası Müdafiə Sənayesi Təşkilatının baş direktorunu qəbul edib



Sentyabrın 12-də "Bakı Ekspo Mərkəzi"ndə Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Beynəlxalq müdafiə sənayesi "ADEX-2014" sərgisində iştirak etmək üçün ölkəmizdə səfərdə olan İran İslam Respublikası Müdafiə Sənayesi Təşkilatının baş direktoru briqada generalı Qasım Tağızadənin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüş zamanı regional təhlükəsizlik və ölkələrimiz arasında hərbi sahədə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə fikir mübadiləsi aparılıb.

Görüşdə İran İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Möhsün Pakayin iştirak edib.

## Azərbaycan Respublikasının Müdafiə naziri Koreya Respublikasının nümayəndəsini qəbul edib

Sentyabrın 12-də "Bakı Ekspo Mərkəzi"ndə Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Beynəlxalq müdafiə sənayesi "ADEX-2014" sərgisində iştirak etmək üçün ölkəmizdə səfərdə olan Koreya Respublikası Müdafiə Təminatı Proqramı Administrasiyasının nazir müavini cənab Kim Çul Sunu qəbul edib.

Görüş zamanı regiondakı vəziyyət və ölkələrimiz arasında hərbi-texniki sahədə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.



## Azərbaycan Respublikasının Müdafiə naziri Fransa Respublikası Silahlandırma Baş İdarəsinin Beynəlxalq inkişaf direktoratlığının rəisini qəbul edib

Sentyabrın 12-də "Bakı Ekspo Mərkəzi"ndə Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Beynəlxalq müdafiə sənayesi "ADEX-2014" sərgisində iştirak etmək üçün ölkəmizdə səfərdə olan Fransa Respublikası Silahlandırma Baş İdarəsinin Beynəlxalq inkişaf direktoratlığının rəisi general Stefan Rebin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüş zamanı Azərbaycan və Fransa arasında qarşılıqlı maraq doğuran hərbi və hərbi-texniki məsələlərə dair fikir mübadiləsi aparılıb.

Görüşdə Fransa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Paskal Mönye də iştirak edib.



## Azərbaycan Respublikasının Müdafiə naziri Bəhreyn Respublikasının nümayəndəsini qəbul edib



Sentyabrın 12-də Bakı Ekspo Mərkəzində Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Beynəlxalq müdafiə sənayesi "ADEX-2014" sərgisində iştirak etmək üçün ölkəmizdə səfərdə olan Bəhreyn Krallığı Müdafiə Qüvvələri Komandanının müdafiə məsələləri üzrə məsləhətçisi general-mayor Əbdüləziz bin Əhməd Əl-Xəlifəni qəbul edib.

Görüşdə regional hərbi-siyasi vəziyyət, ikitərəfli hərbi əməkdaşlıq və müxtəlif məsələlər barədə fikir mübadiləsi aparılıb.

## Azərbaycan Respublikasının Müdafiə naziri Çexiya Respublikası Müdafiə nazirinin müavinini qəbul edib



Sentyabrın 12-də "Bakı Ekspo Mərkəzi"ndə Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Beynəlxalq müdafiə sənayesi "ADEX-2014" sərgisində iştirak etmək üçün ölkəmizdə səfərdə olan Çexiya Respublikası Müdafiə nazirinin müavini cənab Yakub Kulhanekin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüş zamanı qonağa Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verilib, hərbi-texniki sahədə əməkdaşlıq məsələləri müzakirə olunub.

## Azərbaycan Respublikasının Müdafiə naziri Çin Xalq Respublikasının nümayəndələrini qəbul edib

Sentyabrın 12-də "Bakı Ekspo Mərkəzi"ndə Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Beynəlxalq müdafiə sənayesi "ADEX-2014" sərgisində iştirak etmək üçün ölkəmizdə səfərdə olan Çin Xalq Respublikası "Ümumiçin İdxal-İxrac Dəqiq Maşınqayırma" korporasiyası idarə heyətinin vitse-prezidenti cənab Van Suçanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüş zamanı regionlardakı hərbi-siyasi vəziyyət və ölkələrimiz arasında qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.



# Silahlı Qüvvələrdə irimiqyaslı əməliyyat-taktiki təlimləri keçiriləcək

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi plana əsasən, sentyabrın 13-dən 20-dək Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bütün qoşun növlərinin, o cümlədən Türkiyə Respublikası Silahlı Qüvvələrinin hərbi hissələrinin cəlb olunması ilə mərhələli surətdə irimiqyaslı əməliyyat-taktiki təlimləri keçiriləcək.***

Birinci mərhələdə kəşfiyyatın bütün növlərinin, Xüsusi Təyinatlı Qüvvələrin, Hərbi Hava Qüvvələri, o cümlədən, hava hücumundan müdafiə qoşunlarının qarşılıqlı fəaliyyəti və uzlaşma məsələlərinin öyrənilməsi nəzərdə tutulub.

İkinci mərhələdə quru qoşunlarının birləşmə və hissələri müxtəlif şəraitlərdə, o cümlədən, dağlıq ərazidə hücum əməliyyatının təşkili və aparılması, taktiki hava desantının, reyd və ön dəstələrin tətbiqi, əməliyyatların hərtərəfli təminatı üzrə tapşırıqları yerinə yetirəcəklər.

Ali Baş Komandanın şəxsi göstərişinə əsasən təlimlər zamanı birləşmə və hissələrin səfərbərlik tapşırıqlarının yerinə yetirilməsi səviyyəsinin yoxlanılması məqsədilə ehtiyatda olan 10.000 nəfərədək hərbi vəzifəli təlim toplanışına cəlb ediləcək. Döyüş hazırlığı çərçivəsində onlarla silah və hərbi texnikadan istifadə qaydaları üzrə praktiki məşğələlər, döyüş atışları, mənəvi-psixoloji hazırlıq və döyüş uzlaşması üzrə tədbirlər keçiriləcəkdir.



Üçüncü mərhələdə təlim mərkəzləri və poliqonlarda motoatıcı və tank bölmələrinin, raket və artilleriya qurğularının, zenit-raket komplekslərinin, döyüş təyyarə və helikopterlərinin döyüş atışları icra olunacaq, praktiki raket buraxılışları və bombalama həyata keçiriləcəkdir.

Təlimlərə 30.000 nəfərədək şəxsi heyət, 250-dən artıq zirehli texnika, raket və artilleriya qoşunlarının 150-dən çox qurğusu, Hərbi Hava Qüvvələrinin 20-dək təyyarəsi və 15 helikopteri, həmçinin qruplaşmanın havadan mühafizəsi məqsədilə qoşunların hava hücumundan müdafiə bölmələri və müasir hava hücumundan müdafiə kompleksləri ilə silahlanmış zenit-raket birləşmələri cəlb ediləcək.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

***11 sentyabr 2014-cü il.***

Erməni silahlı bölmələri dünən və bu gecə Ağdam rayonunun Baş Qərvənd, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında və Goranboy rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

***12 sentyabr 2014-cü il***

Erməni silahlı bölmələri dünən və bu gecə Goranboy rayonunun Tapqaraqoyunlu, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz və Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

## Düzəliş

Qəzetimizin 10 sentyabr 2014-cü il tarixli sayında "Hərbi xidmət müddətində test"in 6-cı sualında yanlışlığa yol verilib. Sualın cavabı belə oxunmalıdır: a) 3; b) 4; c) 6

Məsul katib
mayor
İlham BEHBUDOV

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

Ünvanımız
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
Lalə HÜSEYNOVA

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 290
Nüsxə 4570